# Səlahiyyətli İqtisadi Operator statusundan istifadəyə dair

Authorized Economic Operator

AEO

Azerbaijan

# Metodiki Tövsiyə

**2023**

# Mündəricat

1. Giriş ... 3

2. Ümumi məlumatlar ... 4

2.1. SİO anlayışı ... 4

2.2. Qanunvericilik ... 4

2.3. SİO statusunun verildiyi şəxslər ... 4

2.4. SİO statusunun üstünlükləri ... 4

3. SİO statusunun verilməsi şərtləri ... 6

3.1. Malların təyinat yerinə çatdırılmasının Ümumdünya Gömrük Təşkilatının müəyyən etdiyi təhlükəsizlik normalarına və standartlarına uyğun olaraq təmin edilməsi imkanının mövcudluğu ... 6

3.2. Gömrük və vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi ... 7

3.3. Gömrük nəzarəti baxımından əhəmiyyət kəsb edən kommersiya və nəqliyyat sənədlərinin idarə edilməsinə dair qənaətbəxş sistemin olması ... 7

3.4. Gömrük ödənişlərini və digər ödənişləri həyata keçirmək üçün maliyyə imkanlarının olması ... 7

3.5. Fəaliyyət göstərdiyi sahədə ən azı 2 (iki) il təcrübəsinin olması ... 7

3.6. Müvafiq təhlükəsizlik və mühafizə standartlarının tətbiqi imkanlarının olması ... 8

3.7. İnformasiya mübadiləsini lazımi səviyyədə təmin edən texniki bazasının olması ... 8

4. Müraciət qaydası ... 9

4.1. Ərizənin təqdim olunması ... 9

4.2. SİO statusunun verilməsi və onun fəaliyyətinin monitorinqi ... 9

5. Texniki məsələlər ... 10

5.1. Bildirişlərin verilməsi ... 10

5.2. İnteqrasiya və çeviklik ... 10

5.3. Əks-əlaqə mexanizmi ... 10

6. Yekun ... 11

# 1. Giriş

Qlobal ticarətdə təhlükəsizliyin təmin edilməsi və ticarətin asanlaşdırılması sahəsi üzrə vahid strategiyaya ehtiyac yarandığından, Ümumdünya Gömrük Təşkilatı 2002-ci ildən etibarən öz tərəfdaşları ilə birgə fəaliyyətə başladı və nəticə olaraq 2005-ci ildə “Təhlükəsiz Çərçivə standartları” (SAFE Framework) sənədi qəbul olundu. Sözügedən sənədin qəbulunda əsas məqsəd beynəlxalq terrorizmin qarşısının alınması ilə yanaşı, gömrük rüsum və vergilərinin düzgün qaydada toplanmasını və ticarətin sadələşdirilməsini təşviq etməkdən ibarət idi.

Bununla əlaqədar olaraq, 2007-ci ildə Gömrük-Biznes əməkdaşlığı çərçivəsində *Səlahiyyətli İqtisadi Operator* proqramı dünya gömrük ictimaiyyətinə təqdim edildi.

Ümumdünya Gömrük Təşkilatının Səlahiyyətli İqtisadi Operator proqramı biznes subyektlərinin könüllü riayət prinsipləri üzərində qurulmuş təhlükəsiz, şəffaf və proqnozlaşdırıla bilən ticarət mühitinin formalaşdırılmasını təşviq edən əsas qlobal alətlərdən biridir.

Beynəlxalq ticarət iqtisadi inkişafa təkan verən əsas göstəricilərdən biri hesab edildiyindən, ticarətin və iqtisadi fəaliyyətin müxtəlif növlərinin liberallaşdırılması və buna müvafiq olaraq beynəlxalq ticarəti daha azad edən proteksionizm siyasətinin və digər məhdudiyyətlərin aradan qaldırılması sağlam ticarət mühitinin inkişafı üçün vacib əhəmiyyətə malikdir.

Bu hədəflərə nail olunması istiqamətində gömrük orqanları tərəfindən Səlahiyyətli İqtisadi Operator proqramının tətbiqi milli təhlükəsizliyin təmin edilməsində, potensial təhlükələrin qarşısının vaxtında alınmasında və ticarətin təşviqində mühüm rol oynayır.

# 2. Ümumi məlumatlar

## 2.1. SİO anlayışı

Səlahiyyəli İqtisadi Operator (bundan sonra - SİO) - Ümumdünya Gömrük Təşkilatının və ya ekvivalent təchizat zəncirinin təhlükəsizlik standartlarına uyğun olaraq gömrük nəzarətinin sadələşdirilmiş forma və üsullarından istifadə edilməsinə səlahiyyət verilmiş hüquqi şəxsdir. SİO üzrə üstünlüklərdən istifadə etmək üçün gömrük və biznes arasında şəffaflıq, düzgünlük, ədalətlilik, məsuliyyət və bir-birinin səlahiyyət və funksiyalarına qarşılıqlı hörmət prinsiplərinə dayanan münasibətlərin formalaşdırılması zəruri şərtlərdəndir.

Bu proqramın tətbiqində əsas məqsəd beynəlxalq təchizat zəncirinin təhlükəsizliyini təmin etməkdən və biznes subyektlərinə xüsusi üstünlüklər verməklə ticarət əməliyyatlarını sadələşdirməkdən ibarətdir.

## 2.2. Qanunvericilik

Ümumdünya Gömrük Təşkilatının təhlükəsizlik norma və standartları, dəyişdirilmiş redaksiyada Kyoto Konvensiyası, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinin 5-ci fəsli, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş “Səlahiyyətli İqtisadi Operator statusunun verilməsi, müvəqqəti dayandırılması və ləğv olunması Qaydaları” və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin müvafiq normativ aktları SİO proqramının tətbiqində əsas hüquqi bazanı təşkil edir.

## 2.3. SİO statusunun verildiyi şəxslər

Azərbaycan Respublikasının gömrük ərazisində təsis edilən, beynəlxalq təchizat zəncirinin bir hissəsi olmaqla, gömrük ilə əlaqədar əməliyyatlarda iştirak edən və kommersiya hesablarının şəffaflığı, maliyyə dayanıqlığı, təhlükəsizlik standartları və digər bu kimi gömrük və vergi qanunvericiliyi əsasında müəyyənləşdirilmiş şərtlərə cavab verən istənilən iqtisadi operator SİO statusunun əldə olunması üçün Dövlət Gömrük Komitəsinə (bundan sonra - Komitə) ərizə ilə müraciət edə bilər.

İqtisadi operator gömrük və vergi qanunvericiliyi ilə əhatə olunan fəaliyyətləri həyata keçirən aşağıda qeyd olunan hüquqi şəxslərdir:

- İdxalatçılar;
- İxracatçılar;
- Gömrük təmsilçiləri;
- Daşıyıcılar;
- Anbar sahibləri.

SİO statusu ərizəçinin qanunvericilikdə nəzərdə tutulan şərtlərə uyğunluğu yoxlanılmaqla fəaliyyət göstərdiyi sahə üzrə verilir.

## 2.4. SİO statusunun üstünlükləri[1]

SİO statusu əldə edəcək şəxslərə Komitə tərəfindən verilən üstünlüklərin əsas məqsədi gömrük və vergi qanunvericiliyinin tələblərinə riayət edən xarici ticarət iştirakçıları üçün daha əlverişli şərait yaratmaq, biznesin dövlət tənzimləmə mexanizmlərinin səmərəliliyini artırmaq, risklərin qiymətləndirilməsi əsasında gömrük nəzarətini daha çevik və şəffaf həyata keçirməklə fiziki gömrük

[1] *Üstünlüklər Dövlət Gömrük Komitəsinin 26 may 2023-cü il tarixli 1000/135 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Səlahiyyətli İqtisadi Operator statusu əldə etmiş şəxslərə verilmiş üstünlüklərə dair Metodika”ya uyğun tənzimlənir.*

yoxlamalarını minimuma endirmək və mövcud resurslardan daha optimal istifadəni təmin etməkdir.

SİO üstünlükləri yalnız statusu almış şəxs tərəfindən istifadə edilə bilər. SİO statusu verilmiş şəxslərə gömrük orqanı tərəfindən gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi sahəsində aşağıda göstərilən ümumi və əlavə üstünlüklər verilə bilər:

**Ümumi üstünlüklər:**

- gömrük sərhəd buraxılış məntəqələrində onlara məxsus mal və nəqliyyat vasitələrinin növbəsiz buraxılışına şəraitin yaradılması;
- gömrük nəzarəti formalarının tətbiqi zamanı qeyri-intruziv avadanlıqlardan istifadəyə üstünlük verilməsi;
- gömrük əməliyyatları və prosedurlarının tətbiqi ilə bağlı icazələrin prioritet qaydada verilməsi;
- mallar üzərində gömrük yoxlamasının mövcud olduğu təqdirdə şəxslərin anbarlarında həyata keçirilməsi;
- malların gömrük ekspertizasının aparılması xidmətlərinin öncəlik verilməklə həyata keçirilməsi;
- gömrük rəsmiləşdirilməsinin həyata keçirilməsi üçün gömrük bəyannaməsini istənilən gömrük orqanına (ixtisaslaşdırılmış gömrük orqanlarında rəsmiləşdirilən mallar istisna olmaqla) təqdim etmə sərbəstliyinin verilməsi;
- gömrük rəsmiləşdirilməsi ilə bağlı xidmətlərin iş yerindən və vaxtından kənar saatlarda göstərilməsi;
- artıq ödənilmiş gömrük ödənişlərinin geri qaytarılma prosesinin sürətləndirilməsi;
- gömrük xidməti tərəfindən ticarətin asanlaşdırılması ilə bağlı həyata keçirilən layihələrdə öncül iştirak və istifadə imkanının yaradılması;
- gömrük işi sahəsində yeniliklər, ən yaxşı təcrübələr, habelə beynəlxalq təşkilatların tövsiyə və standartları ilə bağlı təşkil edilən təlimlərdə iştirak edilməsi;
- gömrük işi üzrə sorğuların operativ qaydada cavablandırılması və xarici ticarət fəaliyyəti ilə bağlı məsləhətvermə xidmətlərinin göstərilməsi üçün təhkim olunmuş əməkdaşlarla əlaqələrin yaradılması;
- SİO loqosundan istifadə olunması;
- digər ölkələrlə bağlanmış qarşılıqlı tanınma sazişləri çərçivəsində həmin ölkələrin gömrük orqanları tərəfindən verilən üstünlüklərdən istifadə edilməsi;
- Ümumdünya Gömrük Təşkilatının təhlükəsizlik standartlarını qəbul etmiş bütün ölkələrin siyahısı haqqında məlumatların əldə olunması.

**Əlavə üstünlüklər:**

- idxal olunan malların birbaşa öz anbarlarına aparılması;
- gömrük bəyannaməsi təqdim olunduğu təqdirdə, gömrük orqanlarının razılığı əsasında malların daşındığı nəqliyyat vasitələrindən gömrük eyniləşdirmə vasitələrinin (plombların və s.) müstəqil qaydada çıxarılması və malların boşaldılması;
- idxal edilən mallara münasibətdə mövcud və ya yarana biləcək gömrük borcuna təminat təqdim edilməklə malların buraxılışının təmin edilməsi;
- ixrac olunan malların gömrük əməkdaşının iştirakı olmadan nəqliyyat vasitəsinə yüklənməsi və gömrük orqanlarının tanıdığı eyniləşdirmə vasitələrinin (plomblar, möhürlər, ştamplar və s.) müstəqil tətbiq olunması;
- fəaliyyət zonasını əhatə edən gömrük orqanına getmədən, ixrac olunan mallara və nəqliyyat vasitələrinə dair məlumatları özündə əks etdirən gömrük bəyannaməsini elektron qaydada gömrük orqanlarına təqdim etməklə malları bəyan etdiyi gömrük sərhəd buraxılış məntəqəsinə birbaşa göndərməsi;
- fors-major hallarda gömrük əməliyyatlarının üstünlük prinsipi əsasında tətbiqi;
- təyinat yerinə çatma müddəti və marşrut seçimində sərbəst olması.

# 3. SİO statusunun verilməsi şərtləri

Gömrük orqanı tərəfindən qiymətləndirmənin və yoxlamaların aparılmasının əsas məqsədi ərizəçinin fəaliyyət göstərdiyi sahə üzrə SİO statusunun verilməsi üçün şərtlərə uyğunluğunu müəyyən etməkdir.

*Nümunə, idxalatçı təhlükəli malların idxalı ilə məşğul olduqda həmin şəxs tərəfindən daha fərqli və geniş təhlükəsizlik tədbirləri təmin edilir.*

Bununla əlaqədar, risk əsaslı gömrük yoxlamaları həyata keçirilir və ümumi SİO şərtləri ilə yanaşı, ərizəçinin beynəlxalq təchizat zəncirindəki rolu da araşdırılır.

"Öz fəaliyyətini qiymətləndirmə" sorğusu gömrük orqanı tərəfindən ərizəçilər üçün hazırlanmışdır və SİO statusunun verilməsi ilə bağlı müraciətin gömrük orqanı tərəfindən qiymətləndirilməsi zamanı istifadə olunan vacib vəsaitdir.

"Öz fəaliyyətini qiymətləndirmə" sorğusu ərizəçiyə özünün beynəlxalq təchizat zəncirindəki hazırlığını ölçməkdə və gömrük orqanları qarşısında etibarlılıq dərəcəsini müəyyən etməkdə kömək olacaqdır. Komitə ərizəçi tərəfindən doldurulub təqdim olunan sorğuda olan məlumatları ətraflı yoxlamaqla, SİO statusunun əldə edilməsi ilə bağlı müraciətə cavab verir.

SİO statusunun verilməsi ilə bağlı ilkin şərtlər aşağıdakılardır:

## 3.1. Malların təyinat yerinə çatdırılmasının Ümumdünya Gömrük Təşkilatının müəyyən etdiyi təhlükəsizlik normalarına və standartlarına uyğun olaraq təmin edilməsi imkanının mövcudluğu

Əsas tələblər:

- nəqliyyat vasitələrinin təhlükəsiz daşıma şərtlərinə cavab verməsi;
- malların yüklənməsi, daşınması, boşaldılması, qəbulu və saxlancı zamanı toxunulmazlığın və bütövlüyün təmin edilməsi, o cümlədən bu sahədə hüquqa zidd əməllərin qarşısının alınması;
- yüklərə qeyri-qanuni müdaxilələrin istisna edilməsi;
- idxal olunan malların fiziki vəziyyətinin, qablaşdırılmasının, o cümlədən kəmiyyət və keyfiyyət göstəricilərinin sənəd üzərində təqdim olunan məlumatlarla uyğun olması;
- malların saxlanc yerlərinin təhlükəsizlik standartlarına cavab verməsi;
- faktiki və ya şübhəli məsələlər barədə məlumatların dərhal gömrük orqanına yazılı bildirilməsinə dair prosedurların olması;
- hər hansı təhlükəsizlik pozuntuları, daşıma zamanı icazəsiz dayanma və ya müəyyən edilmiş marşrutlardan yayınma halları barədə məlumatların daşıyıcı tərəfindən dərhal gömrük orqanına bildirilməsi;
- malların daşınması prosesində iştirak edən şəxslərin müvafiq təhlükəsizlik təlimlərinə cəlb olunması;
- böhran vəziyyətlərində idxal-ixrac əməliyyatlarının fasiləsiz tənzimlənməsi məqsədilə əməkdaşların maarifləndirilməsi.

### 3.2. Gömrük və vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi

Əsas tələblər:

- mövcud hüquq normalarına zidd hər hansı hüquqpozma faktının törədilməməsi;
- gömrük bəyannamələrinin düzgün verilməsi işinin təmin edilməsi;
- ticarət tərəfdaşlarının təhlükəsiz və etibarlı olmasına dair qiymətləndirmə və yoxlamaların aparılması.

Hüquqpozmalara nümunə olaraq aşağıdakılar göstərilə bilər:

- Qaçaqmalçılıq;
- Gömrük və vergi ödənişlərinin ödənilməsindən yayınma;
- İxrac nəzarəti rejimini pozma;
- Qanunla mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaları qanunsuz olaraq daşıma.

### 3.3. Gömrük nəzarəti baxımından əhəmiyyət kəsb edən kommersiya və nəqliyyat sənədlərinin idarə edilməsinə dair qənaətbəxş sistemin olması

Əsas tələblər:

- maliyyə uçotunun milli və ya beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq aparılması;
- malların fiziki olaraq saxlanıldığı yerləri müəyyən etməyə imkan verən anbar idarəetmə sisteminin olması;
- uçot məlumatlarının təhlükəsizliyinin təmin edilməsi;
- maliyyə uçotu və anbar idarəetmə sistemlərinə gömrük orqanına giriş imkanının (o cümlədən elektron) verilməsi;
- nəqliyyat sənədlərinin idarə olunması üçün elektronlaşdırılmış sənəd dövriyyəsi sisteminin mövcud olması.

### 3.4. Gömrük ödənişlərini və digər ödənişləri həyata keçirmək üçün maliyyə imkanlarının olması

Əsas tələblər:

- fəaliyyət sahəsi üzrə, o cümlədən digər iqtisadi məsələlərdə maliyyə öhdəliklərinin yerinə yetirilməsi ilə bağlı dayanıqlığın olması;
- hər hansı bir göstərici üzrə maliyyə öhdəlikləri yerinə yetirilə bilmədikdə əhatəli təminatın verilməsi imkanı.

### 3.5. Fəaliyyət göstərdiyi sahədə ən azı 2 (iki) il təcrübəsinin olması

Əsas tələblər:

- son 2 (iki) il ərzində idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi;
- gömrük qanunvericiliyi və gömrük işi sahəsində bilik və təcrübənin olması.

### 3.6. Müvafiq təhlükəsizlik və mühafizə standartlarının tətbiqi imkanlarının olması

Əsas tələblər:

- binaların strukturlarında olan ümumi ərazilərin, ofislərin, anbarların, hasarların, darvazaların, işıqlandırma, siqnalizasiya, yanğın-mühafizə və videomüşahidə sistemlərinin, kilidləmə qurğularının, parkinq zonalarının təhlükəsizlik tələblərinə cavab verməsi;
- obyektlərə, nəqliyyat vasitələrinə, informasiya sistemlərinə və mallara dair sənədlərə, o cümlədən yükləmə sahələrinə icazəsiz girişlərin qadağan olunması;
- işçilərin (inzibati və texniki heyət daxil olmaqla), ziyarətçilərin, sürücülərin və nəqliyyat vasitələrinin əraziyə daxil olması məsələlərini tənzimləyən nəzarət mexanizmlərinin olması;
- gömrük nəzarətindən keçməli olan mal və nəqliyyat vasitələrinin olduğu yerlər üzrə ərazi planlarının mövcudluğu;
- böhran hallarında ticarətin davamlılığının təmin olunması üçün planların və mexanizmlərin olması.

### 3.7. İnformasiya mübadiləsini lazımi səviyyədə təmin edən texniki bazasının olması

Əsas tələblər:

- informasiya mübadiləsi, məlumatların arxivləşdirilməsi, qeydiyyatı, məxfiliyi və təhlükəsizliyi, o cümlədən fərdi məlumatların qorunması sahəsində mexanizmlərin olması;
- məlumatlardan yanlış məqsədlər üçün istifadənin və kənar müdaxilənin qarşısının alınması;
- məlumat mübadiləsinin aparılması üzrə müvafiq prosedur və mexanizmlərin mövcudluğu.

# 4. Müraciət qaydası

## 4.1. Ərizənin təqdim olunması

SİO statusunun əldə olunması üçün hüquqi şəxslər tərəfindən Komitəyə Ərizə[2] ilə müraciət edilir. Müraciət edilməmişdən əvvəl hüquqi şəxslər ətraflı məlumatların əldə olunması və öz hazırlıq səviyyəsinin ilkin qiymətləndirilməsi məqsədilə gömrük orqanı ilə məsləhətləşmə aparmaq hüququna malikdirlər.

Ərizədə aşağıdakı məlumatlar doldurulur:

- şirkət haqqında ümumi məlumatlar;
- şirkət nümayəndələri barədə məlumatlar;
- müraciətin növü;
- şirkətin geniş fəaliyyətinə dair məlumatlar.

SİO statusunun alınması barədə ərizə elektron formada təqdim olunur. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

- "Öz fəaliyyətini qiymətləndirmə" sorğusu;
- gəlir və xərc, balans, kapitalın hərəkəti, nağd pul axını hesabatları;
- gömrük nəzarətindən keçməli olan mal və nəqliyyat vasitələrinin olduğu yerlər üzrə çertyojlar;
- ərizənin və "Öz fəaliyyətini qiymətləndirmə" sorğusunun doldurulması zamanı təqdim edilməsi tələb olunan sənədlər.

## 4.2. SİO statusunun verilməsi və onun fəaliyyətinin monitorinqi

SİO statusunun verilməsi və onun fəaliyyətinin monitorinqi gömrük orqanı tərəfindən aşağıdakı ardıcıllıqla həyata keçirilir:

- müraciət və sənədlərin yoxlanılması;
- təqdim edilən məlumatlar üzrə fiziki yoxlamalar;
- qərarın qəbulu prosesi;
- monitorinq və qiymətləndirmə.

[2] *Ərizə Dövlət Gömrük Komitəsinin 26 may 2023-cü il tarixli 1000/135 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.*

# 5. Texniki məsələlər

## 5.1. Bildirişlərin verilməsi

SİO proqramının tətbiqi mərhələləri boyu ərizəçilər, SİO statusu almış şəxslər və digər maraqlı tərəflər üçün gömrük orqanı tərəfindən müvafiq bildirişlər verilir. Bu bildirişlər aşağıdakı sahələri əhatə edə bilər:

a) SİO statusunun verilməsi ilə bağlı müraciətin qəbulu;
b) müraciətin statusu (baxılır, təsdiq və ya imtina verilmişdir və s.)
c) əlavə məlumat və ya sənədlərin tələbi;
d) audit və digər gömrük yoxlamalarının vaxtı;
e) sənədlərin vaxtının bitməsi;
f) proqramın tələblərində və ya qanunvericilikdə olan dəyişikliklər;
g) ehtimal edilən təhlükə və ya pozuntular;
h) gömrük ilə bağlı digər məsələlər.

## 5.2. İnteqrasiya və çeviklik

SİO proqramı daxilində inteqrasiya və çevikliyin təşkili vacib elementlərdəndir. Bu özündə ehtiva edir:

a) məlumat mübadiləsi məqsədilə SİO-lara məxsus aidiyyəti sistemlər ilə mövcud gömrük və digər ticarət sistemləri arasında inteqrasiyanın təmini;
b) SİO statusu almış şəxslərdə proqramın tələblərini çevik və düzgün icra etmə qabiliyyətinin olması;
c) müasir texnologiya və alətlərdən istifadə edilməsi.

## 5.3. Əks-əlaqə mexanizmi

SİO statusu almış şəxslər tərəfindən əks-əlaqə mexanizminin tətbiqi ümumi proseslərin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu özündə ehtiva edir:

a) SİO proqramı çərçivəsində həyata keçirilən əməliyyatlara dair sorğuların aparılması, təlimlərin keçirilməsi və nəticələri üzrə gömrük orqanlarının məlumatlandırılması;
b) İdxal-ixrac əməliyyatlarını həyata keçirən zaman gömrük orqanlarının fəaliyyət sahəsinə aid olan məsələlərə çevik münasibət bildirilməsi və buna dair təkliflərin verilməsi.

# 6. Yekun

“Səlahiyyətli İqtisadi Operator statusundan istifadəyə dair Metodiki Tövsiyə” sənədinin məqsədi beynəlxalq təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi və ticarətin asanlaşdırılması sahəsində birgə tədbirlərin həyata keçirilməsində xarici ticarət iştirakçılarına dəstək olmaqdan ibarətdir.

Xarici ticarət iştirakçıları “Gömrük-Biznes” (C2B) dialoqu çərçivəsində fəal iştirak etməklə SİO proqramının tətbiqinin genişləndirilməsində mühüm rola malikdirlər. Bu sənəd SİO qanunvericiliyinin tələblərinə riayət edən və öz ticarət əməliyyatlarını hüquq prinsipləri çərçivəsində yerinə yetirən şəxslərə SİO statusu üçün müraciət imkanlarını qiymətləndirməkdə və öz hazırlıq səviyyələrini ölçməkdə əsas köməkçi vasitələrdən olacaqdır.

SİO statusu üçün müraciət etməyi planlaşdıran şəxslərə müraciətdən əvvəl gömrük orqanları ilə məsləhətləşmələrin aparılması tövsiyə olunur. Ərizəçilər tərəfindən “Öz fəaliyyətini qiymətləndirmə” sorğusunun ətraflı doldurulması və tələb olunan sənədlərin tam şəkildə təqdim edilməsi gömrük orqanları tərəfindən SİO statusu üçün müraciətlərə daha tez və çevik cavab verilməsinə əlverişli şərait yaradacaqdır.

Həmçinin bu sənəddə qeyd olunan şərtlər xarici ticarət iştirakçılarına öz ticarət əməliyyatlarını müasir standartlara uyğunlaşdırmaqda kömək etməklə yanaşı, onlara beynəlxalq təchizat zəncirində aktiv iştirak üçün geniş imkanlar açacaq və yeni biznes münasibətlərinin qurulmasına əlavə təkan verəcəkdir.